

■ Oqtay Səmədoğlu

## NECƏ YAZILSIN BAŞ DAŞIN

*Uşaqlıq yoldaşım Mətləbin xatirəsinə*

Yadımdadır, qoşulub,
İlk sinfə getdiyimiz.
Yad məhlənin uşağıyla,
Minbir tərslik etdiyimiz.

Bizim ərik bağında
Oxuyub, çalışdığımız.
Hər mövzunu öyrənib,
Sevincdən alışdığımız.

Amal üçün çalışdıq,
Nəhs yollara getmədik.
Çoxları kefə qaçdı,
Biz bunları etmədik.

Təzəcə rahatlanıb
Tikə çörək tapanda.
Qızlarını böyüdüb,
Nəvəyə əl atanda,
Bir bəd xəbər yayıldı.
Baxmadılar
Gecənin toranına,
Yatanlar da ayıldı.
Qaçdılar
Gülpərinin harayına.

Nə olsun gəldik.
Neyləyə bildik.
Evdə böyük sən idin,
Səndəki dillənmədin.
İndi necə yazılsın baş daşın,
Mətləbinə çatmayan,
Mənim Mətləb qardaşım.

## BİZƏ DƏDƏMİZDƏN NƏ QALMIŞDI Kİ...

Ayları, illəri qovhaqov ilə
Bilmədim bu ömür necə ötüşdü.
Ha aldım, ha satdım, bezmədim hələ
Ovcum yarıboş, mənə nə düşdü?
Ya mənə möhtac var, ya mən möhtacam,
Öynədən-öynəyə nə saxlayacam.

Kövrəldim... Şükür etdim...
göz dolmuşdu ki,
İçimdən bir avaz gəldi qocaman:
-"Bizə dədəmizdən nə qalmışdı ki..."
Utandım
atamı bir vaxt qanmadan
Yersiz qınadığım yadıma düşdü.
O da bir "şər vaxtı" belə demişdi.

## DOST İTİRƏNDƏ

Çox azdı həyatda dostumun sayı,
Sınaqlar yüzündən bizi saxlayıb.
Burda çıxış baha, giriş havayı,
Etibar yolları belə bağlayıb.

Mən dostu özümdən başa çəkmişəm,
O da bu ülfətlə başlayıb sözə.
Dost süzüb rəqiblə "zəm-zəm" içmişəm-
Küsüb-inciyənim çıxmayıb üzə.

Dostlarsız həyatı fəna sanmışam,
Doğmalar başqadı, dostlarım özgə.
Mən dosta güvənib qürurlanmışam,
Yadların avandı, astarı özgə.

...Dostlarla çox arzu, dilək bitirdim
Cəfaya dözməyən səfanı bilmir.
Elə ki, zamansız bir dost itirdim,
Rahat yaşamağa heç üzüm gəlmir.

*18.XI.2014-cü il*

## NAR ÇİÇƏYİ

Gövdəsi nar, barı gül,
Gülünün də yarı gül,
Tanrı yadigarı gül-
Nar çiçəyi.

Bütöv deyil dərəsən,
Ləçəyi yox hörəsən,
Yaranıb ki, görəsən
Nar çiçəyi.

Nar güldüdür, bəlkə bu,
Oxşardılar,-doğrusu,
Eyni-iyi, qoxusu
Nar çiçəyi.

Dadı var hər nemətin,
Bu sirri bilmək çətin,
Xoş... - ana təbiətin
var çiçəyi-
Nar çiçəyi.

*VI.2014*

## ATAMA DAHA ÇOX OXŞADIĞIM GÜN...

Qardaş da, bacı da təki var ola,
Amma usananda atandı axı.
Ata tək könüldə kim vüqar olar,
Canın da qıyar o, - atandı axı!

Bir ata yasına yığışmışıq biz,
Çöhrədən duyuram oğlu nə çəkir.
Qəlbindən qan axır, ağlı deyir sus!
Bir gözü seyr edir, biri yaş tökür.

Ata xatirini ananlar gəlib,
El-oba burdadı, dost, tanış burda,
Qədrini ən uca tutanlar gəlib
Həm incik, həm doğru, həm yanlış burda.

Bu qədir günündə qürurun uca
Atana daha çox oxşadığın gün.
Bu gün atan qədər yaşın da qoca
Səmirsiz, içində ağladığın gün.

Nə yaşda ölsə də vaxtsız sayılır
Atalar ümiddir- əbədi çağlar.
Ata ölən günü oğullar yanır,
Təkliyi duyanda hönkürüb ağlar.

Ataya söykənən sinəsin gərər,
O elə qüvvə ki, zor ki,- yenilməz.
Gövdəsiz budaqlar çör- çöpdən betər,
Sallağı düzəlməz, tabı bilinməz.

Sevgisi-qayğısı üzdə olsa da,
Atalar niskili qəlbə salarlar.
Öyrədə-öyrədə yaşa dolsa da,
Dünyadan köçəndə sirli qalarlar.

Atanın son sozü baxışındadır
O anda gözünə baxanlar duyar.
O son arzusumu, ölümmü dadır?-
Onunçün söyləməz, özünə qıyar.

Övladın çiynində köçmək qərarı-
Atanın-ananın əhdi, diləyi.
Bu əhdi şərəflə yaşadanların
Murazı var olsun, tanrı köməyi.

*XII. 2012*

## YADIMA NİYƏ DÜŞDÜN

İçimdə büzülən dərdim,
Xiffətdən əzilən dərdim,
Dərdindən üzülən dərdim,
Yadıma niyə düşdün.

Əlimdən düşən Şuşam,
O gündən dərdə tuşam,
Niskilimdən kül olmuşam
Yadıma niyə düşdün.

Əsir dostum, adaşım,
Doğmam, bacım, qardaşım-
Yaddan çıxmaz yaddaşım,
Yadıma niyə düşdün.

...Sala dönmüş heyrətim,
Lala dönmüş həsrətim,
Kələ dünmüş qeyrətim
Tərpən, ciyərim bişdi,-
Yadıma niyə düşdün.

*may 20014-cü il*

## DÜZMÜŞƏM

*təcnis*

Halıma bax,-dörd yanımda dərd üzür,
Könlümdəki sevinci də dərd üzür,
Budağından tut silkələ, dər,-düzür
Elə bil ki,san-san özüm düzmüşəm.

Adətkaram-dərdi,qəmi yaşadam,
Görmüsənmi dərd-qəmindən yaş Adam,
Soruşan yox:-qəmküsaram, ya şadam.
Bu fələklə döyüşməkdə düzmüşəm.

...Haqq gəzənin cığırı daş, yolu mar,
Yıxılmadım-yazılmasın yolum ar,
Oqtay, səndən hamı haqlı yol umar,
Bu ülfətə çələng yolu düzmüşəm.

*15.X.2014*

## EVLİLİK

Dar küçədə rastlaşdılar
sıxışdılar,-
yol açdılar,
yolüstü də sözləşdilər,
görüşdülər,
sevişdilər.

Çöl-bayırda
dönər yeyib,
tox qarına can-can deyib
şelləndilər,
bir ay belə gün keçirib
evləndilər.
...Qayğıları başlayanda
pərtləşdilər,
tənə-tənə,
qınaq-qınaq
"dərdləşdilər",
xoş dil tapa bilmədilər,
bir araya gəlmədilər,-
umu-küsüyə qurşandılar,
Bir ay deyişib,
üç ay da əlləşib
boşandılar.

*06.XII.2014*

## ÜRƏYİM YAMANCA İSTƏDİ KƏNDİ

Yaz gəlir, hər tərəf gülsə də ancaq,
Mənim ürəyimdə o ana torpaq.
Varı bərəkətli, insanları pak,
İndi ətir saçan çöldü, çəməndi,
Ürəyim yamanca istədi kəndi.

Şəhər gündüzümdür, kəndimiz gecəm,
Röyada görməsəm, sevinc mənə kəm,
Gedib torpağından bir də öpəcəm,
Havası loğmanım, tozu həbimdi,
Ürəyim yamanca istədi kəndi.

Gedə bilməmişəm haçandan bəri,
Mal-heyvan uçurub yəqin çəpəri,
Gərək sahmanlayam dağılan yeri,
Yadıma saldıqca canım ürpəndi,
Ürəyim yamanca istədi kəndi.

Həyəti-bacanı gəzim, qayıdım,
Qaçım ayaqyalın, şehin oyadım,
Axtarıb özəkdən, yemlikdən dadım,
Hay çıxsın toyuqlar pərən-pərəndi,
Ürəyim yamanca istədi kəndi.

Ovcumda bulanıq suyundan içim,
Çalada yıxılım, arxından keçim,
Döyüb dəryazımı, yoncanı biçim,
Sonra sulamaqçün bağlayım bəndi,
Ürəyim yamanca istədi kəndi.

Bir gün naxırçının növbəsin alım,
"Çiling-ağac"ında cığallıq salım,
Dalaşıb qonşunun saçını yolum,
Baxım ki, üst-başım qana bələndi,
Ürəyim yamanca istədi kəndi.

,,,Oqtayam, doğmalar, dostlar bir yana,
Dəvətlər bir yana, tostlar bir yana,
Gedim ki, ruhumu qaytarım cana,
Könlün hardadısa ora vətəndi,
Ürəyim yamanca istədi kəndi.

*21.III.2013*



*Əvvəli səhifə 18-də*

## VƏTƏN HAQQINDA BALLADA

Şah damarı donmuş Vətən,
Dünəninə, bu gününə
Sonsuz kədər qonmuş Vətən!
Kimlər qoydu qara daşı
Taleyinin qismətinə?!
Kimlər çaldı baltaları
Sənin vüqarlı qəddinə?!
Damarından axan qanı
Sənə qənim kəsdirdilər!
Başın üstə sapı səndən
Baltaları əsdirdilər!
Çaqqal aşdı çəpərindən
Əsər-əlamət qalmadı.
Sözlərinin təpərindən
Düşmənini tanımadın.
Dağladılar külüng vuran biləyindən,
Dağladılar qan hayqıran ürəyindən!
Qocaltdılar yaşını da, başını da,
Qocaltdılar qayanı da, daşını da!
Övladlarının qanıyla
Torpağını suladılar.
Yenilməz bir aslan idin,
Kimlər quyruq buladılar?!
Kimlər su içdi arxından?
Kimlər qalib çıxdılar, de
Fələyin sınaq çarxından?!
Bağlarında aşiq bülbül
Gülünə uça bilmədi.
Xan Arazın öz Kürünə
Qəlbini aça bilmədi...
Sənin gözəl Saranı da
Sellər apardı yağıya.
Dilini də döndərdilər,
Qoymadılar ki, qarğıya!
Dədə Qorqud məzarının
Titrədi torpağı, daşı.
Kəpəz dağı Göygölünə
Axıtdı gözünün yaşın.
Koroğlu Misri qılıncı
Əlinə ala bilmədi.
Qaçaq Nəbi Həcərinin
Hayına çata bilmədi.
Ürəyinin sol payını
Sağ payından ayırdılar.
Bir idin min tikələrə
Kimlər səni ayırdılar?!
Göz yaşından Xəzərimin
Suyu daha durulmadı.
Addımlarımız Şuşanın
Yollarında yorulmadı.
Bax ki, İsa bulağından
Kimlər içdi sərin suyu?!
Bax, üzünə gülə-gülə
Kimlər sənə qazdı quyu...
Kimlərə qaldı Xocalın?!
Kimə qaldı Qarabağın?!
Gəlinlərin buz heykələ
Döndü dağda ayaqyalın...
Kim çəkdirdi əzabları sənə, Vətən?!
Kimlər qıydı bənövşəli dağlarına ,
Kim qarğıdı qızıl güllü bağlarına...
Kim çayına daşlar atıb bulandırdı?!
Dərd yükünə dərd caladı?!
Dodağında təbəssümün dondu, qaldı,
Göylərinə qara bulud kölgə saldı.
Yamacların, yolların da fikrə daldı,
Ağacların, kolların da fikrə daldı.
Fələk sənin taleyini niyə belə qara yazdı?
Təbiətin gülmədi heç,
Baharın da - qara yazdı.
Kimlər sənə quyu qazdı?!
Doğru niyə haqq yolundan belə azdı?!
Başına gələn bəlanı
Heç kim bilmək istəmədi!
Gözünün qəm yağışını
Kimsə silmək istəmədi!
Kor oldular, görmədilər qəlbinin
qan ağlamağın,
Görmədilər göyün, yerin,
kainatın sənə matəm saxlamağın...
Neçə-neçə övladının toy mağarı qurulmadı,
Yar yoluna həsrət gözlər
yol çəkməkdən yorulmadı.
Neçə-neçə cavanlara qərənfillər
həyan oldu xiyabanda,
Kimi dağda, daşda dondu,
kimi çölü-biyabanda...
Nələr gördün gözlərinlə,
nələr gördün aman vətən!
Kaş tezliklə başın üstdən
çəkilə bu duman Vətən!
Çəkilə bu duman Vətən!

**Günel Malıyeva,**
**Astara rayonunun**
**Siyaku kənd tam orta məktəbinin**
**Azərbaycan dili və ədəbiyyatı müəllimi**